***R**usiyada XII-XIII əsr məbədlərində Vladimir, Kiyev, Novqorod şəhərlərindəki kilsə və monastırlarda tarixi və bədii əhəmiyyətə malik qiymətli şeylərin saxlandığı haqqında çoxlu məlumat verilmişdir. İlk rus muzeyi 1919-cu ildə Peterburqda açılmışdır.*

Azərbaycanda muzey yaradılması təşəbbüsü hələ XIX əsrin 90-cı illərindən ortaya atılmış olsa da, yalnız ayrı-ayrı ziyalıların şəxsi təşəbbüsləri çərçivəsindən kənara çıxa bilməmişdir. Həmin təşəbbüskarlardan biri Azərbaycanın realist dramaturqu Cəlil Məmmədquluzadə olmuşdur. O, 1890-cı ildə müəllim işlədiyi Naxçıvanın Nehrəm kəndindəki məktəbdə Tarix-Diyarşünaslıq muzeyi yaratmışdır.

1918-ci ildə Azərbaycan Demokratik Respublikası qurulduqdan sonra Azərbaycanın iqtisadi-siyasi həyatında olduğu kimi, mədəni həyatında da dönüş yarandı. Məhz Azərbaycan tarixində ilk muzey sayılan "İstiqlal" muzeyi ADK-in mövcud olduğu dövrdə 1910-cu ildə fəaliyyətə başlamışdır.

Muzeylər hər bir xalqın tarixi və mədəni həyatında əvəzolunmaz bir rol oynayır. Muzeylər keçmişlə gələcəyin qovuşduğu yer, qaranlıqları işıqlandıran bir ocaqdır. Ölkəmizdə müxtəlif profilli muzeylərin gündən-günə çoxalması, fəaliyyət göstərməsi tarixi keçmişimizin yenidən yaşantısı deməkdir.

Demək olar ki, Azərbaycanın hər bölgəsində Tarix, Tarix-Diyarşünaslıq, ev muzeyləri fəaliyyət göstərir. Əgər XX əsrin 80-cı illərinə qədər Azərbaycanda 80-dən artıq muzey var idisə, müstəqilliyini yenidən bərpa etmiş Azərbaycanın indiki dövründə muzeylərin sayı 150-dən artıqdır.





*Muzey sözü latınca "Muzeum", yəni muzalara həsr edilmiş yer, muzalar məbədi deməkdir. Muzeylər ilk dəfə e.ə. XVI əsrdə Kritdə, e.ə. XII-XIII əsrlərdə Çində, e.ə. VII əsrdə Nivejiyada, əsasən saraylarda sənədlər, şəhadətnamələr və estetik qiymətə malik əşyalar kompleksi şəklində, həmçinin e.ə. III əsrdə qədim Yunanıstanda və Romada məbədlərin və bəzi şəxslərin kolleksiyaları şəklində meydana gəlmişdir.*

# Muzeylərin tarixi və tərbiyəvi əhəmiyyəti

Həmin muzeylərdən biri də Göyçay Tarix-Diyarşünaslıq Muzeyidir. Bizim muzey 1984-cü ildən fəaliyyətə başlamış və minlərlə tamaşaçının marağına səbəb olmuşdur. Digər muzeylər kimi GTDM-yi də maddi mədəniyyət abidələrinin kompleksləşdirilməsi, mühafizəsi, öyrənilməsi, kütləvi nümayişin həyata keçirilməsi işi ilə uğurla məşğul olur. Hal-hazırda muzeyimizdə sayı 6000-ə qədər eksponat toplanmışdır. Tarixi və orijinallıq, mövzu cəhətdən bir-birindən fərqlənən eksponatların sayının gündən-günə artması və tamaşaçılarda maraq oyatması muzey işçilərinin fədakar əməyinin nəticəsidir.

Göyçay Tarix-Diyarşünaslıq Muzeyi kütləvi tədbirlərin həyata keçirilməsində də fəal iştirak edir. Həmin tədbirlərdən biri də may ayının 19-da keçirilən "Muzeylər gecəsi" aksiyasıdır.

Muzey keçmişimizi işıqlandıran ocaqdır. Burada tarixən qədim, dərin məzmunlu, təhlilə ehtiyacı olan eksponatlarla yanaşı, müasir tarixə malik əşyalar, məlumatlar da nümayiş etdirilir.

Mədəni irsimizin, tarixi abidələrimizin, nadir sənət incilərimizin, bir sözlə, tarixin qorunub saxlanmasında, gələcək nəsillərə çatdırılmasında muzeylərin rolu əvəzolunmazdır. Bu baxımdan Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin 6 mart 2007-ci il tarixdə verdiyi "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" sərəncamı respublikamızda muzey işinin, muzey mədəniyyətinin daha da yüksəldilməsi və inkişaf etdirilməsi işinə dövlət qayğısının parlaq təzahürüdür.

Muzeylər tariximizi qoruyub saxlayan, gələcək nəsillərə çatdıran bir məkandır. Orada tarixin müxtəlif olaylarında baş verən hadisələrlə tanış olur, xalqın mədəni həyatıyla yaxından xəbərdar olursan. Çox təəssüflə qeyd etməliyik ki, Ermənistan, Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi respublikamızda muzeylərin inkişafına ağır zərbə vurmuşdur. Erməni qəsbkarları tərəfindən işğal olunmuş ərazilərdə 20-dən artıq tarix-memarlıq abidələri, xatirə-memorial komplekslər və muzey qoruqlar dağıdılmış, muzey fondlarında mühafizə olunan qiymətli eksponatlar və sənət yadigarları bütünlüklə qarət edilmişdir. Bütün bunlara baxmayaraq, Azərbaycanda bu gün muzey işinin inkişaf etdirilməsi istiqamətində lazımi tədbirlər görülür. Zəngin ekspozisiyaya malik GTDM-də keçirilən "Muzeylər gecəsi" aksiyasının böyük tərbiyəvi əhəmiyyəti vardır. Muzeylər əsl tərbiyə ocağı olub məktəblilərin muzeyə marağını artırır, onların dünya görüşünün formalaşmasına kömək edir, gələcəyə inam yaradır və vətənpərvərlik hissini gücləndirir.

GTDM-də yaradılmış yeni ekspozisiya "Muzeylər gecəsi" tədbirində nümayiş etdirilərək, böyük mədəniyyətə, incəsənətə, mənəvi dəyərlərə sahib olan xalqımızın həyatında muzeylərin tərbiyəvi əhəmiyyətini bir daha sübut edir. Bu tədbir muzey işçilərinin mədəniyyət bayramı kimi yadda qalacaqdır.

23 aprel 2007-ci il tarixdə 9 rayon üzrə Şamaxı rayonunda keçirilən kollegiya iclasında hörmətli nazirimiz Əbülfəs Qarayev lazımi tövsiyələrini vermişdi.

Biz muzey işçiləri 2007-ci il mart ayının 6-da hörmətli İlham Əliyevin "Muzey işlərinin yaxşılaşdırılması haqqında" sərəncamı ürəyimizcə oldu.

**Humay ƏSGƏROVA,**
**Göyçay Tarix-Diyarşünaslıq Muzeyinin elmi işçisi**